# Əlavə 5B

## Quşlar haqqında hesabat

Dekabr 2015

# CƏNUB – QƏRBİ ABŞERON MÜQAVİLƏ SAHƏSİNİN YERLƏŞDİYİ XƏZƏRİN ABŞERON – QOBUSTAN SAHİL ZOLAĞININ QUŞLARI HAQQINDA ƏDƏBİYYAT İCMALI

## Regionun əhəmiyyəti

Xəzərin Abşeron - Qobustan sahil zolağı su və sahil ekoloji qruplarına mənsub quşların yaşayış yeri kimi beynəlxalq və regional əhəmiyyətə malikdir. Bu regionda quşların 10 əsas toplantı yerindən 7 – i Cənub – Qərbi Abşeron müqavilə sahəsində yerləşir. Bu müqavilə sahəsində miqrasiya, qışlama, yuvalama vaxtı Azərbaycanın Qırmızı kitabında, Beynəlxalq Təbiəti Mühafizə İttifaqının Qırmızı Siyahısında, RAMSAR, Bern, Bonn, CİTES konvensiyalarında və AEWA sazişinin əlavələrində olan Beynəlxalq əhəmiyyətə malik sayda müxtəlif quş növləri yaşayır.

Ornitofaunanın zənginliyi ilə bərabər Xəzərin Abşeron - Qobustan sahil zolağı neft sənayesinin inkişafı üçün də böyük əhəmiyyətə malikdir. Onu da qeyd edək ki, müqavilə sahəsində Bakı arxipelaqı Abşeron yarımadasının palçıq vulkanlarının Dövlət Təbiət Qoruğu və Abşeron Milli Parkı yerləşir.

Aparılan tədqiqatların məqsədi Cənub – Qərbi Abşeron müqavilə sahəsində məskunlaşan sudaüzən və sahil ekoloji qruplarına mənsub olan quşların növ tərkibi, sayı, məskunlaşma xarakteri, yaşayış yerlərinin müasir vəziyyəti, onlara təsir edən amillərə aid ədəbiyyat məlumatlarını analiz edib seysmokəşfiyyat işləri vaxtı onlara göstəriləcək təsirləri yumşaltmaq üçün elmi əsaslandırılmış tövsiyələr hazırlamaqdır.

## Məlumatların təhlili

Müqavilə sahəsində və onun yerləşdiyi Xəzərin Abşeron - Qobustan sahil zolağının bu sahəsinə yaxın ərazilərində 128 növ sudaüzən və sahil quşu qeyd edilmişdir (4, 7, 9, 10, 11). Quşların növ tərkibi, sayı, dinamikası, ərazilər üzrə paylanması, miqrasiya, qışlama və yuvalama dövrlərində bir - birindən kəskin fərqlənir.

**Miqrasiya edən quş növləri**

Müqavilə sahəsinin yerləşdiyi Xəzərin Abşeron - Qobustan sahil zolağından sudaüzən və sahil ekoloji qruplarına mənsub 128 növ quşun miqrasiya yolu keçir (cədvəl 1.).

**Cədvəl 1**

**Cənub – Qərbi Abşeron müqavilə sahəsinin yerləşdiyi Xəzərin Abşeron - Qobustan sahil zolağında sudaüzən və sahil quşlarının növ tərkibi, məskunlaşma xarakteri və beynəlxalq konvensiyaların, sazişlərin onlara münasibəti**

| *N* | *Növün adı* | *Məskunlaşma* | *Konvensiyalar və sazişlər* | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | *RAMSAR* | *CİTES* | *Bern* | *Bonn* | *AEWA* |
| | **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** |
| 1. | Gavia stellata – qırmızıdöş qaqar | ts | + | | + | + | + |
| 2. | G.arctica – qaradöş qaqar | ts | + | | + | + | + |
| 3. | Podiceps ruficollis - kiçik maygülü | o,qk | + | + | + | | |
| 4. | P.nigricollis - qaraboyun maygülü | qk | + | | + | | |
| 5. | P.cristatus -iri maygülü | o,qk | + | | + | | |
| 6. | P.grisegena -bozyanaq maygülü | qk | + | | + | + | + |
| 7. | Pelicanus crispus -qıvrımlələk qutan | qk | + | + | + | + | + |
| 8. | P.onocrotalus - çəhrayı qutan | qk | + | | + | + | + |
| 9. | Phalacrocorax carbo -böyük qarabatdaq | o,qk | + | | + | | |
| 10. | Ph.pygmaeus -kiçik qarabattaq | qk | + | | + | + | + |
| 11. | Botaurus stellaris -böyük danquşu | ök | + | | + | + | + |
| 12. | İxobrychus minutus -kiçik danquşcuq | ök | + | | + | + | + |
| 13. | Nycticorax nycticorax - adi qarıldaq | ök | + | | + | | |
| 14. | Ardeola ralloides– sarı pırtlaşıqlələk | ök | + | | + | | |
| 15. | Bubulcus ibis - misir vaqcığı | ök | + | | + | | |
| 16. | Eqretta alba -böyük ağnaz | qk | + | | + | | |
| 17. | E.garzetta– kiçik ağnaz | qk | + | | + | | |
| 18. | Ardea cinerea - boz vağ | qk | + | | + | | |
| 19. | A.purpurea -kürən vağ | yk | + | | + | + | + |
| 20. | Plegadis falcinellus -adi garanaz | ök | + | | + | + | |
| 21. | Ciconia ciconia - ağ leylək | ök | + | | + | + | + |
| 22. | Phoenicopterus roseus - adi flaminqo | qk | + | + | + | + | + |
| 23. | Cygnus olor -fısıldayan quləlæk | qk | + | | + | + | + |
| 24. | C.cygnus - haraycı quləlæk | qk | + | | + | + | + |
| 25. | C.bewickii -kiçik quləlæk | qk | + | | + | + | + |
| 26. | Anser anser - boz qaz | ök | + | | + | + | + |
| 27. | A.albifrons -ağalın qaz | ök | + | | + | + | + |
| 28. | A.erythropus -ağqaş qaz | ök | + | | + | + | + |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 29. | Branta ruficollis -qırmızıdöş kazarka | ök | + | + | + | + | + |
| 30. | Chen caerulescens – adi ağqaz | ök | + | | + | + | + |
| 31. | Tadorna ferruginea -qırmızı anqut | yk | + | | + | + | + |
| 32. | Tadorna tadorna - ala anqut | qk | + | | + | + | + |
| 33. | Anas platyrhynchos -yaşılbaş ördək | o,qk | + | | + | + | + |
| 34. | A.penelope -fiyu (marek) ördək | qk | + | | + | + | + |
| 35. | A.crecca -fitrçi ördək | qk | + | | + | + | + |
| 36. | A.clupeata - enliburun ördək | qk | + | | + | + | + |
| 37. | A.sterepera -boz ördək | qk | + | | + | + | + |
| 38. | A.acuta - bizquyruq ördək | qk | + | | + | + | + |
| 39. | A.querquedula - cırıldayan ördək | qk | + | | + | + | + |
| 40. | Marmaronetta angustirostris -mərməri ördək | qk | + | | + | + | + |
| 41. | Netta rufina -qırmızıburun dalğac | qk | + | | + | + | + |
| 42. | Aythya ferina - qırmızıbaş qaraördək | qk | + | | + | + | + |
| 43. | A.nyroca - ağgöz qaraördək | qk | + | | + | + | + |
| 44. | A.fuligula -kəkilli qaraördək | qk | + | | + | | + |
| 45. | A.marila - dəniz qaraördəyi | qk | + | | + | | + |
| 46. | Clangula hyemalis – şimal qaraoxcarı | ök | + | | + | + | + |
| 47. | Melanitta nigra – singə qılquyruğu | ts | + | | + | + | + |
| 48. | M.fusca –qılquyruq ördək | ts | + | | + | + | + |
| 49. | Bucephala clangula -güləyən meşəördəyi | qk | + | | + | | + |
| 50. | Oxyura leucocephala – adi göydimdik | qk | + | + | + | | + |
| 51. | Merqus merganser - böyük pazdimdik | qk | + | | + | | + |
| 52. | M.serrator - uzunburun pazdimdik | qk | + | | + | | + |
| 53. | M.albellus -nazik pazdimdik | qk | + | | + | | + |
| 54. | Grus grus -boz durna | ök | + | + | + | + | + |
| 55. | G.leucogeranus – ağ durna | ök | + | + | + | + | |
| 56. | Anthopoides virgo – gözəl durna | ök | + | + | + | + | |
| 57. | Rallus aquaticus– adi sufərəsi | o,qk | + | | + | | |
| 58. | Porzana porzana– adi təqibçi | qk | + | | + | + | + |
| 59. | P.parva– kiçik təqibçi | ök | + | | + | + | + |
| 60. | P.pusilla – cırtdan təqibçi | ök | + | | + | + | + |
| 61. | Crex crex- adi civdimdik | ök | + | | + | + | |
| 62. | Gallinula chloropus– qamış fərəsi | ök | + | | + | | |
| 63. | Porphyrio porphyrio – adi sultanquş | o | + | | + | | |
| 64. | Fulica atra - adi qaşqaldaq | qk | + | | + | + | + |
| 65. | Pluvialis squatarola -qızılxallı qonurqanad | ök | + | | + | + | + |
| 66. | P.fulva – asiya qonurqanadı | ök | + | + | + | | |
| 67. | P.apricaria - qızılı qonurqanad | ök | + | | + | + | + |
| 68. | Charadrius hiaticula -yaxalıqlı bozca | ök | + | | + | + | + |
| 69. | Ch.leschenaulti -yoğundimdik bozca | yk | + | | + | + | + |
| 70. | Ch.dubius -kiçik bozca | qk | + | | + | + | + |
| 71. | Ch.alexandrinus –dəniz bozcası | yk | + | | + | + | + |
| 72. | Ch.asiaticus –xəzər bozcası | ök | + | | + | + | + |
| 73. | Eudromias morinellus –adi düymədimdik | ök | + | | + | + | + |
| 74. | Vanellus vanellus–çibis bibikinə | ök | + | | + | + | + |
| 75. | Chetusia gregaria -cığırqan çökükburun | ök | + | | + | + | + |
| 76. | Vanellochetusia leucura –çökükburun ağquyruq | ök | + | | + | + | + |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 77. | Lobivanellus indicus – hindistan bəzəklicəsi | ök | + | | + | + | |
| 78. | Himantopus himantopus -caydaq cüllüt | o,qk | + | | + | + | + |
| 79. | Recurvirostra avosetta -adi bizdimdik | o,qk | + | | + | + | + |
| 80. | Haematopus ostralegus–sağsağan alacüllüt | ök | + | | + | + | |
| 81. | Trigna ochropus -qara ilbizcüllüt | yk | + | | + | + | + |
| 82. | T.glareola -fifi ilbizcüllüt | ök | + | | + | + | + |
| 83. | T.totanus -otluq ilbizcüllütü | o,qk | + | | + | + | + |
| 84. | T.nebularia -böyük ilbizcüllüt | ök | + | | + | + | + |
| 85. | T.erythropus - bülbülü ilbizcüllüt | ök | + | | + | + | + |
| 86. | T.stagnatilis - çay ilbizcüllütü | ök | + | | + | + | + |
| 87. | Actitis hypoleucos -adi sahildəyişən | qk | + | | + | + | + |
| 88. | Terekia cinereus -boz səsyamsılayan | ök | + | | + | + | + |
| 89. | Philomachus pugnax - düməli döyüşkən | ök | + | | + | + | + |
| 90. | Calidris ferruginea -qırmızıdöş qumluqca | ök | + | | + | + | + |
| 91. | C.alba - üçbarmaq qumluqca | ök | + | | + | + | + |
| 92. | C.temminckii -ağquyruq qumluqca | ök | + | | + | + | + |
| 93. | C.minuta - sərçəvi qumluqca | ök | + | | + | + | + |
| 94. | C.albina - qaradöş qumluqca | qk | + | | + | + | + |
| 95. | C.melanotos – du-du qumluqça | ök | + | | + | + | + |
| 96. | C.canutus – islandiya qumluqçası | ök | + | | + | + | + |
| 97. | Limicola falcinellus–qaraca lilcüllüt | öt | + | | + | + | + |
| 98. | Numenius teuirostris - kiçik əyridimdik | ök | + | + | + | + | + |
| 99. | N.arquata -böyük əyrdimdik | ök | + | | + | + | + |
| 100. | N.phaeopus - ortaboy əyridimdik | ök | + | | + | + | + |
| 101. | Arenaria interpres–sahil daşçevirəni | ök | + | | + | + | + |
| 102. | Phalaropus lobatus -dəyirmiburun üzərçə | ök | + | | + | + | + |
| 103. | Lymnocryptes minimus - kiçik tükcüllüt | qk | + | | + | + | + |
| 104. | Gallinago media -ortaboy tənbəlcüllüt | öt | + | | + | + | + |
| 105. | G.gallinago– adi tənbəlcüllüt | qk | + | | + | + | + |
| 106. | Limosa limosa -böyük oxcüllüt | qk | + | | + | + | + |
| 107. | L.lapponica - kiçi oxcüllüt | öt | + | | + | + | + |
| 108. | Scolopax rusticola - meşə çilikdimdiyi | ök | + | | + | + | |
| 109. | Glareola pratincola - çəmən haçaquyruğu | ök | + | | + | + | + |
| 110. | G.nordmanni -bozqır haçaquyruğu | ök | + | | + | + | + |
| 111. | Curcorius cursor – adi qaçağan | ök | + | | + | | + |
| 112. | Burhinius oedicnemus– çobanaldadan pərtəgöz | yk | + | | + | + | |
| 113. | Larus argentatus - gümüşü qağayı | qk | + | | + | | |
| 114. | L.canus -boz qağayı | qk | + | | + | | |
| 115. | L.melanocephalus - qarabaş qağayı | yk | + | | + | + | + |
| 116. | L.genei -dəniz göyərçəsi | yk | + | | + | + | + |
| 117. | L.ichthyaetus -güləyən qağayı | qk | + | | + | + | + |
| 118. | L.cachinnans - qəh-qəyi qağayı | o | + | | + | | |
| 119. | L.ridibundus - adi qağayı | qk | + | | + | | |
| 120. | L.minutus - kiçik qağayı | öt | + | | + | | |
| 121. | Chlidonias hybrida -ağyanaq bataqlıqsüpürən | yk | + | | + | | |
| 122. | Ch.leucopterus - ağqanad bataqlıqsüpürən | yk | + | | + | | |
| 123. | Ch.niger - qara bataqlıqsüpürəni | ök | + | | + | + | + |
| 124. | Gelochelidon nilotica -qırmızıayaq qağayıburun | ök | + | | + | + | + |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 125. | Sterna hirundo– çay susüpürəni | yk | + | | + | + | + |
| 126. | S.albifrons - kiçik susüpürən | yk | + | | + | + | + |
| 127. | S.sandvicensis–alaburun susüpürəni | yk | + | | + | + | + |
| 128. | Hydroprogne caspia -xəzər susüpürəni | yk | + | | + | + | + |
| | **Cəmi** | **128** | **128** | **10** | **128** | **99** | **99** |

***Qeyd**: o – oturaqdır,*
*o,qkp – oturaq, qışlayan köçəri populyasiyaları vardır,*
*qk – qışlayan köçəridir,*
*yk – yuvalayan köçəridir,*
*ök – ötüb keçəndir,*
*ts – təsadüfən rast gəlinəndir*

Payız miqrasiya vaxtı Rusiyanin Avropa hissəsində, Qərbi Sibirdə, Qazaxstanın şimal - qərbində yuvalayan quşlar qışlamaq üçün Xəzərin cənub hissəsinə, cənub - qərbi Asiya ölkələrinə, Afrikaya, yaz miqrasiyası vaxtı isə əksinə şimal istiqamətində uçurlar. Quşların payız miqrasiyası əsasən avqust ayının ikinci yarısından başlayır, dekabrın ikinci ongünlüyünə kimi davam edir. Rusiya ərazisində qış sərt keçdikdə quşların miqrasiyası yanvarın 10 - a kimi davam edir. Ən aktiv vaxt isə noyabr ayında olur. Quşların yaz miqrasiyası isə fevralın ikinci yarısından başlayır, apreldə qurtarır, ən aktiv vaxtı martda olur (10, 11). Payız miqrasirası vaxtı Abşeron sahil zolağında quşların 51, 43% - i Xəzərin sahili boyu Cənub istiqamətində, 36,64% - i cənub - qərb istiqamətində, 11, 93 % - i isə Pirallahı - Şahdili sahəsindən cənub - qərb istiqamətində (7) Xəzərin Türkmənistan sahillərinə uçurlar (şəkil 1).

Axırıncı məlumatları biz son 35 ildə apardığımız tədqiqatlar zamanı Cənubi Xəzərdə yerləşən Qərbi Çıraq və digər neft sahələrində işləyən BP şirkətinin əməkdaşları da müşahidə etmişlər. Onların məlumatlarına görə gecə miqrasiyası zamanı quşların müəyyən hissəsi dənizdəki neft platformaları ətrafında oturur. Tək - tək fərdləri isə platformalara ilişərək tələf olurlar. Lakin qeyd edilən sahələrdə quşların növ tərkibi və sayı haqqında ədəbiyyatlarda heç bir məlumat yoxdur. Yaz miqrasiyası zamanı isə quşların 39, 76% - i şimal istiqamatində, 26, 32% - i şimal - qərb istiqamətində, 25,50% - i isə şimal - şərq istiqamətində uçurlar (7).

Miqrasiya vaxtı sudaüzən və sahil quşlarının əsas hissəsini çay (Anas), dalğıc (*Netta*) və qaraördəkləri (*Aythya*), qağayılar (*Laridae*) və adi qaşqaldaq təşkil edir.




Şəkil 1. Cənub – Qərbi Abşeron müqavilə sahəsində sudaüzən və sahil quşlarının miqrasiya yolları. ↑ şimal istiqamətində, ↓cənub istiqamətində,→ cənub-şərq istiqamətində

Burada çay ördəklərinin 7 növünə rast gəlinir. Onlardan yaşılbaş ördək sayca üstünlük təşkil edir, noyabr - dekabr aylarında sayı daha çox olur. Bu növün yaz köçməsi martın axırından, payız köçməsi isə avqustun sonundan başlanır. Fitçi ördək regionda ən çoxsaylı ördəklərdəndir, köçüb getməsi yazda fevralın axırından başlayır və martın axırına qədər davam edir, payızda isə sentyabrın əvvəlindən başlayır və noyabrın axırında qurtarır. Boz ördək köçmə vaxtı çoxsaylı olur. Yaz köçməsi martın əvvəlində, payız köçməsi isə oktyabrın axırlarında başlanır. Noyabr ayının sonunda onun uçuşu kütləvi olur. Bizquyruq ördək dənizin dayaz sahələrində çoxsaylı olur. Bu növün yaz köçməsi fevralın ortalarında başlayır və aprelin 15 - də qurtarır. Payız köçməsi sentyabrın 15 - də başlanır və oktyabrda kütləvi şəkildə olur. Cırıldayan ördəyin yaz köçməsi mart - aprel aylarında baş verir, payız köçməsi isə avqustun axırından başlanır. Köç vaxtı çoxsaylı dəstələrlə uçurlar. Sentyabrda hər dəstədə 200 - 500 fərd olur, oktyabrda isə tək - tək fərdləri müşahidə olunur. Enliburun ördəyin köçən fərdləri açıq su sahələrində başqa ördəklər arasında aydın seçilirlər. Yazda köçməsi mart - aprel aylarında, payızda isə avqustun axırlarından başlanır, noyabrın

axırında qurtarır. Fitçi ördəyin yaz köşməsi martın əvvəlində başlanır və aprelin əvvəllərində qurtarır, payız kütləvi köçmə uçuşu noyabrın birinci yarısında müşahidə olunur. Ördəklərdən qırmızıburun dalğıc sayca üstünlük təşkil edir. Yaz köçməsi fevralın axırında başlanır və aprelin əvvəlində qurtarır. Payız köçməsi oktyabrda başlanır və dekabrın ortalarında qurtarır. Kəkilli qaraördək ən çoxsaylı ördəklərdəndir. Yaz köçməsi fevralın ortalarından başlanır. Köçən fərdlərin yerinə cənubdan yeni ördək dəstələri gəlir. Köçmə aprelin ortalarınadək davam edir. Payız köçməsi sentyabrda başlanır və dekabra qədər davam edir. Dəniz qaraördəyi çoxsaylı deyildir. Ona dənizin açıq sahələrində rast gəlinir. Köçüb getməsi yazda - fevralın axırında başlanır və aprelin əvvəlində qurtarır. Payızda isə sentyabrın ortalarında başlanır və dekabra qədər davam edir. Ağgöz qaraördək, güləyən meşəördəyi, kiçik pazdimdik, uzunburun pazdimdik, böyük pazdimdik, qırmızı anqut, ala anqut, mərməri ördək sayca azdır, uçub getmə vaxtları digər ördəklərin uçub getmə vaxtlarına uyğun gəlir.

Payız miqrasiya vaxtı Xəzərin Abşeron - Qobustan sahil zolağında ötüb keçərkən qazların üç növü müşahidə olunur. Onlardan *Anser anser* - ə noyabrın əvvəlində, lakin kütləvi şəkildə isə noyabrın sonunda müşahidə olunur. Yuvaladığı ərazilərə havanın temperaturundan asılı olaraq onların müqavilə sahəsindən uçub keçməsi yanvara qədər davam edir. Yaz uçub keçməsi fevralın axırında başlanır və martın 10 – 15 - də kütləvi xarakter alır. Ağalın qazın uçub keçməsi oktyabrın ortalarından dekabra qədər davam edir. Ağqaş qazın payız köçü zamanı müqavilə sahəsindən uçub keçməsi noyabr ayında, yazda isə mart ayında müşahidə olunur.

Quləəyin 3 növünə rast gəlinir. Fısıldayan və harayçı qulələk regiona dekabr ayında gəlir. Şimalda havanın temperaturundan asılı olaraq onların uçub gəlməsi yanvarın 10 - na kimi davam edir. Yaz köçüb getməsi fevralın ikinci yarısında başlanır. Kiçik qulələk regionda təsadüfi rast gəlinir. Qırmızıdöş kazarkanın nəsli kəsilmək üzrədir. Payız köçü oktyabrın sonundan noyabrın ortalarınadək davam edir. Sufərələrindən ən çoxsaylısı adi qaşqaldaqdır. Onun payız köçməsi noyabrın

əvvəllərində başlanır, dekabrda sayı daha çox olur. Yaz köşməsi martın 1 - ci ongünlüyündən başlanır, martın axırı, aprelin əvvəllində kütləvi şəkildə gedir.

Ördəklər, qulələklər, qutanlar və qaşqaldaqlar dənizin əsasən sahil sularında (5 - 6 km enində) məskunlaşırlar. Cüllütkimilərin (Chadhriformes) göstərilən ərazilərdə 65 növü qeyd edilmişdir. Onların payız köçməsi əsasən avqust - noyabr aylarında, yaz köçməsi isə mart - may aylarında olur. Onlara dənizin sahil zolağı boyu bütün su-bataqlıq biotoplarından başqa dənizin bütün akvatoriyasında, həmçinin Cənub – Qərbi Abşeron müqavilə sahəsində də rast gəlmək olar. Bu sahələrdə maygülülərə (Podicipedidae) və qaqarlara da (Gavidae) rast gəlmək olar.

**Qışlayan quş növləri və onların həssas toplantı yerləri**

Xəzərin Abşeron - Qobustan hissəsində qışlama dövründə 57 növ sudaüzən və sahil quşu qeyd edilmişdir. Onların 43 - ü qışlayan köçəri, 2 - i oturaq, 8 - i oturaq, qışlayan köçəri, 4 - ü təsadüfən rast gəlinəndir (cədvəl 1). Qışlayan quşların əsas hissəsini miqrasiya dövründə olduğu kimi çay ördəkləri, dalğıc ördəkləri, qaraördəklər və adi qaşqaldaqlar təşkil edir. Quşların beynəlxalq əhəmiyyətli qışlaq yerləri müqavilə sahəsində quşların yem ehtiyatları ilə zəngin olan (8) Pirallahı adası, Şahdili, Türkan, Zığ, Puta (Dərin Özüllər zavoduna yaxın laqunlar da daxil olmaqla), Səngəçal buxtası və Qırmızı göldür (cədvəl 2, şəkil 2). Qışda Abşeron - Qobustan sahil sularında sudaüzən quşların ümumi sayı 11.2002 - ci ildə 131342, 11.2003 - cü ildə 154191, 1.2004 - cü ildə 127388, 1.2005 - ci ildə 141665, 1.2006 - cı ildə 124799 fərd olub (2, 3, 6, 14).

Abşeron - Qobustan sahil sularında sudaüzən quşların əsas hissəsini (2002 – 2005 - ci tədqiqat illərinə uyğun) qırmızıburun dalğıc (13,6% - 17985, 9,7% - 14954, 15% - 19097, 1,8% - 13752, 24% - 30000 fərd), qırmızıbaş qaraördək (2,4% - 3221, 10,9% - 16837, 21,6 - 27508, 14,5% - 20606, 31,2% - 39000 fərd), kəkilli qaraördək (27,5% - 36141, 19% - 29300, 34,8% - 44338, 37,8% - 53581, 36,8% - 46000 fərd) və adi qaşqaldaq təşkil etmişdir (Cədvəl 2).

**Cədvəl 2**

## Cənub – Qərbi Abşeron müqavilə sahəsinin ayrı - ayrı hissəsində əraziyə RAMSAR statusunun verilməsi üçün sayı (fərd) müəyyən edilmiş beynəlxalq göstəricini (1% - li həddi) aşıb keçən quş növləri (2002 – 2006 - cı illər)

| Növlər | Sahələr / Illər | Pirallahı | Şahdili | Türkan | Zığ | Qırmızıgöl | Puta(DÖZ-na yaxın laqundalar da daxil olmaqla) | Səngəçal | 1%-li hədd |
|---|---|---|---|---|---|---|---|---|---|
| Böyük maygülü | 2002<br>2003<br>2005 | 376<br>309 | | | 251 | | | | 100<br>“---“<br>“---“ |
| Qaraboyun maygülü | 2005<br>2006 | | | | 798<br>281 | | | | 250<br>“---“ |
| Qırmızıburun dalğıc | 2002<br>2005<br>2006 | | | | | | 16295<br>13140<br>11350 | | 2500<br>“---“<br>“---“ |
| Qırmızıbaş qaraördək | 2003<br>2004<br>2005<br>2006 | 10904<br>11632<br>8530 | | | | | | | 3500<br>“---“<br>“---“<br>“---“ |
| Kəkilli qaraördək | 2002<br>2003<br>2004<br>2005<br>2006 | 4965 | 10000<br>1670 | 6650<br>8950<br>11052 | 4439<br>7700<br>6071 | 3200<br>6400 | 4941<br>10840<br>5195<br>2836 | 2474<br>3659 | 2000<br>“---“<br>“---“<br>“---“<br>“---“ |
| Adi qaşqaldaq | 2002 | | | | | | 26665 | | 20000 |
| Sudaüzən quşların ümumi sayı 20000-dən çox olan sahələr | 2002<br>2003<br>2004<br>2005<br>2006 | 22865<br>23336<br>36218<br>25666 | 22234<br>21128 | | | | 44527<br>22402<br>37988 | | |




Şəkil 2. Cənub – Qərbi Abşeron müqavilə sahəsində qışda sudaüzən və sahil quşlarının beynəlxalq əhəmiyyətli toplantı yerləri

**Şərti işarələr**: 1 – Səngəçal buxtası, 2 - Puta buxtası (Dərin Özüllər zavodu yaxınlığındakı laqunlarla birlikdə), 3 – Zığ, 4 – Türkan buxtası, 5 - Şahdili, 6 – Pirallahı, 7 - Qırmızı göl.

Xəzərin Abşeron - Qobustan sahil sularında sudaüzən quşların beynəlxalq əhəmiyyətə malik toplantı yerlərindən Pirallahı sahəsində böyük maygülünün, qırmızıbaş və kəkilli qaraördəyin, adi qaşqaldağın, Şahdilidə qırmızıbaş və kəkilli qaraördəyin, Türkan buxtasında kəkilli qaraördəyin, Zığ buxtasında qaraboyun maygülü və və kəkilli qaraördəyin, Puta buxtasında (Dərin özüllər zavoduna yaxın laqunlar da daxil olmaqla) qırmızıburun dalğıcın, kəkilli qaraördəyin və adi qaşqaldağın Səngəçal buxtasında kəkilli qaraördəyin sayı 1% - li həddi aşıb keçir (cədvəl 2).

Cədvəl 2 - dən görünür ki, müqavilə sahəsində Xəzərin Piallahı, Şahdili, Puta (Dərin Özüllər zavoduna yaxın laqunlar da daxil olmaqla), sahil zolağında sudaüzən quşların sayı əraziyə RAMSAR statusunun verilməsi üçün müəyyən edilmiş 20000 - lik göstəricinidə aşıb keçib (cədvəl 2).

## Abşeron müqavilə sahəsində yuvalayan quş növləri və onların həssas toplantı yerləri

Xəzər dənizinin Abşeron - Qobustan sahil zolağı quşların yuva ərazisi kimi beynəlxalq və regional əhəmiyyətə malikdir. Cənub – Qərbi Abşeron müqavilə sahəsində sahil quşlarının 3 əsas yuva sahəsi: 1. Puta buxtasındakı kiçik adalar. 2. Qum Zirə, Daş Zirə, Böyük Zirə və Xanlar adası. 3. Şahdili burnu, Pirallahı, Tava (Böyük, Kiçik), Koltiş, Çilov – ördək, Yal, Qarabatdaq və ona yaxın kiçik adalar müəyyən edilmişdir (5). Yumurtadan çıxan cücələr iyunun ortalarında 12 – 17 günlük olur. Bu vaxt cücələr hamısı adaların ətrafındakı sahil sularında (30 – 70 metr aralı) böyük toplantılar əmələ gətirirlər. Cücələr bu vaxtlar hələ uça bilmirlər. İyulun ikinci yarısında cücələr sərbəst uça bilir və ətrafdakı ərazilərə yayılırlar. Bu vaxtlar onlar təhlükədən asanlıqla uzaqlaşa bilirlər.

**1. Puta buxtası (Dərin Özüllər zavoduna yaxın laqunlarla birlikdə).** Buxtanın sahilindəki adalarda qağayıların yuvaları ilk dəfə 2005 - ci ildə müəyyən edilmişdir. Quşların yuva biotopları açıq quru sahələrdən, nəmli qumsallıqlardan və balıqqulağı yığınlarından ibarətdir. Bu adalarda Xəzərin sahil zolağında yuvalayan quşların ümumi sayının 0,1% - i (985 fərd) məskunlaşmışdır (30 qəh - qəyi qağayı, 400 çay susüpürəni, 525 alaburun susüpürəni).

**2. Qum Zirə, Daş Zirə, Böyük Zirə, Tava və Xanlar adası.** Bu adalarda quşların yuva biotopları açıq quru sahələrdən, qayalıqlardan, daşlıqlardan, balıqqulağı yığınlardan və nəmli qumsaqlıqlardan ibarətdir. Qum Zirə adasına materikdən gedən yolun şimal - şərq hissəsində eni 1 - 2 m, uzunluğu 60 - 70 m olan qamış cəngəlliyi vardır. Bu adalarda 140 fərd qağayı qeydə alınmışdır (15 qəh - qəyi qağayı, 5 göyərçə qağayı, 110 çay susüpürəni, 10 alaburun susüpürən).

**3. Şahdili sahəsi**. Bu sahəyə Şahdili burnu, Pirallahı, Tava (Böyük, Kiçik), Koltiş, Urinos – ördək, Yal, Qarabatdaq, Qu adaları və adaları əhatə edən çoxsaylı neft özülləri daxildir. Quşların yuva biotopları açıq quru sahələrdən, nəmli qumsallıqlardan, balıqqulağı yığınlarından, qayalıqlardan, istifadəsiz neft özüllərindən, Şahdili burnu və Pirallahı burnunun cənub – qərb qurtaracağı

ətrafındakı qamışlıqlardan ibarətdir. Şahdili burnuna yaxın Şahdili adasında 2005 – ci ildə Xəzərin sahilində yuvalan quşların ümumi sayının 1,5% - i (3694 fərd) qeydə alınmışdır. Onlardan (qəh - qəyi qağayı - 1190, çay susüpürəni - 382, alaburun susüpürəni – 260, kiçik maygülü – 4, adi qaşqaldaq – 8, kürən vağ - 2, kiçik bozca – 4 fərd olmuşdur (6).

Adalardan əlavə, Xəzərin müqavilə sahəsinin yerləşdiyi sahil zolağındakı nəmli qumsalıqlarda, qamışlıqlarda, balıqqulağı yığınlarında, açıq bataqlıqlarda kürən vağın, kiçik maygülünün, adi sufəsinin, adi qaşqaldağın, adi soltanquşun, adi caydaqcüllütün, adi bizdimdiyin, kiçik bozcanın, dəniz bozcasının, yoğundimdik bozcanın, qara ilbizcüllütün, oturaq ilbizcüllütün, bəzi illərdə çox az miqdarda (4 – 8 fərdi) yuvalayır. Bunun da əsas səbəbi dənizin bütün sahil zolağı boyu fiziki şəxslərin, özəl və tikinti şirkətlərinin intensiv tikinti işlərinin aparılmasıdır. Sudaüzən quşlar ekoloji qrupuna mənsub olan böyük qarabatdaq çox geniş yayılmış və böyük sayda olan istifadəsiz neft özüllərində yuvalayır.

**Neft daşları.** Abşeron arxipelaqının cənub – şərq hissəsində yerləşir. Neft daşları sayında olan bəzi daşlar suyun səthindən 4 m - ə qədər yüksəlir. İntensiv neftçıxarma və nəqletmə işləri aparılır. Quşların yuvalaması üçün əhəmiyyət kəsb etmir.




Şəkil 3. Cənub – Qərbi Abşeron müqavilə sahəsində sahil quşlarının yuvaladığı əsas ərazilər.

Şərti işarələr: 1 – Puta buxtası, 2 - Qum Zirə, Böyük Zirə, Daş Zirə, Tava, Xanlar adası, 3 - Şahdili burnu və ona yaxın Pirallahı, Tava (Böyük, Kiçik), Koltiş, Çilov – ördək, Yal, Qarabatdaq, Qu və qeyd edilən adaların ətrafında Xəzərin sahil sularında çoxsaylı köhnə neft özülləri.

## Nadir və nəsli kəsilməkdə olan quşlar

Azərbaycanın Qırmızı kitabında və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının Qırmızı siyahısında olan sudaüzən və sahil quşlarından Cənub – Qərbi Abşeron müqavilə sahəsində 21 növə rast gəlinir (cədvəl 3), (1, 17). Bunlardan 4 növ (çəhrayı qutan, qıvrımlələk qutan, adi flaminqo, fısıldayan qulələk). Quşların miqrasiya və qışlama vaxtı müqavilə sahəsinin Pirallahı, Şahdili, Türkan, Zığ, Puta, Səngəçal hissəsində vaxtaşırı, 1 növ (adi soltanquş) Şahdilidə il boyu, 15 növ (ağqaş qaz, ağgöz qaraördək, adi çivdimdik, kiçik qulələk, ağ durna, çığırqan çökükburun, mərməri ördək, qılquyruq ördək, adi göydimdik, qırmıdöş kazarka, ortaboy tənbəlbekas, kiçik əyridimdik, bozqır haçaquyruğu, böyük oxcüllüt, böyük

əyridimdik,) miqrasiya və qışlama vaxtı təsadüfən, 1 növ (qarabaş qağayı) yuvalama vaxtı rast gəlinir.

**Cədvəl 3**

**Cənub – Qərbi Abşeron müqavilə sahəsinin yerləşdiyi Xəzərin Abşeron – Qobustan hissəsində Azərbaycanın Qırmızı kitabında və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının Qırmızı siyahısında olan quş növləri və onların qorunma statusu**

| **N** | **Növün adı** | **Qorunma statusu** |
|---|---|---|
| **1** | **2** | **3** |
| 1 | Çəhrayı qutan | A |
| 2 | Qıvrımlələk qutan | A, B |
| 3 | Adi qızılqaz | A |
| 4 | Qırmızıdöş kazarka | A,B |
| 5 | Ağqaş qaz | A,B |
| 6 | Fısıldayan quləl期 | A |
| 7 | Kiçik quləlik | A |
| 8 | Mərməri ördək | A,B |
| 9 | Ağgöz qaraördək | A,B |
| 10 | Adi göydimdik | A,B |
| 11 | Qılquyruq ördək | A |
| 12 | Adi soltanquş | A |
| 13 | Adi çivdimdik | A,B |
| **1** | **2** | **3** |
| 14 | Çığırqan çökükburun | A,B |
| 15 | Ağquyruq çökükburun | A |
| 16 | Ortaboy tənbəlcüllüt | A,B |
| 17 | Bozqır haçaquyruğu | A,B |
| 18 | Böyük oğcüllüt | B |
| 19 | Böyük əyridimdik | B |
| 20 | Kiçik əyridimdik | B |
| 21 | Qarabaş qağayı | A |

**Qeyd:**
*A – Azərbaycanın Qırmızı kitabı*
*B –Beynəlxalq Təbiəti Mühafizə İttifaqının Qırmızı siyahısı*

Göstərilən növlərdən 10 – u (qıvrımlələk qutan, qırmızıdöş kazarka, ağqaş qaz, mərməri ördək, ağgöz qaraördək, adi göydimdik, ağ durna, adi çivdimdik, çığırqan çökükburun, ortaboy tənbəlcüllüt) həm Azərbaycanın Qırmızı kitabında, həm də Beynəlxalq Təbiəti Mühafizə İttifaqının Qırmızı Siyahısında, 8 – i (Çəhrayı qutan, Adi qızılqaz, Fısıldayan quləlik, Kiçik quləlik, Qılquyruq ördək, Adi soltanquş,

Ağquyruq çökükburun, Qarabaş qağayı) ancaq Azərbaycanın Qırmızı kitabında, 3 – ü isə (Böyük oxcüllüt, Böyük əyridimdik, Kiçik əyridimdik) ancaq Beynəlxalq Təbiəti Mühafizə İttifaqının Qırmızı Siyahısındadır. Müqavilə sahəsində qeyd olunan quşların göstərilən qorunma statuslarından başqa 128 növü RAMSAR konvensiyasının, 128 növü Bern konvensiyasının, 10 növü CİTES konvensiyasının, 99 növü Bonn konvensiyasının, 99 növü isə AEWA sazişinin əlavələrindədir (cədvəl 3) və beynəlxalq miqyasda qorunurlar (18, 19).

Nadir növlərdən yalnız fısıldayan qulələk müqavilə sahəsində geniş yayılmışdır, qalan 20 növ isə təsadüfi hallarda və ya ərazidən ötüb keçərkən müşahidə olunur.

**Quşların yaz, payız və qış mövsümləri üzrə həssaslığı**

Müqavilə sahəsində seysmokəşfiyyat işlərinin neqativ təsirlərinə sudaüzən və sahil quşları üçün ilin ən həssas vaxtları payızda – noyabr və dekabrın birinci yarısı, qışda – yanvar, fevralın birinci yarısı, yazda isə mart ayıdır.

Göstərilən vaxtlarda Xəzərin sahil sularında quşların kütləvi yayılma sahələri, növ tərkibi və sayı köçəri quşların hesabına artır. Qışda və köç vaxtı su quşlarından qaraördək (Aythya ), ördək (Anas), quləlk (Cygnus), meşəördəyi (Bucephala), pazdimdik (Mergus), maygülü (Podiceps), qarabattaq (Phalacrocorax) və qutan (Pelecanus) cinsinə mənsub növlər, həmçinin Fulica atra daha həssas olur. Çünki göstərilən vaxtlarda qeyd etdiyimiz quşlar çox böyük sayda toplantılar əmələ gətirirlər.

Sahil quşlarından bozcalar (Charadhridae), bizdimdiklər (Recurvirostridae), mələrcülütlər (Scolopacidae) və ha,aquyruqlar (Glareolidae) fəsiləsinə mənsub növlər göllməçələrdə, sahildəki qumsallıqlarda və bataqlıqlarda qidalanır. Qağayılar (Laridae) fəsiləsinə mənsub olan növlər isə qida axtarışında bütün açıq su sahələrində, istirahət vaxtlarında isə dənizin sahil zolaqlarında və adalarda çox sayda rast gəlinir.

**Abşeron arxipelaqı adalarında yuvalayan**

**su və sahil quşlarının növ tərkibi, həssaslıq dövrü**

**və qorunma statusu**

Abşeron arxipelaqı adalarında 12 növ su və sahil quşlarının yuvalaması qeyd edilmişdir (cədvəl 4).

**Cədvəl 4**

| **№** | | **Qorunma statusu** | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | **Qırmızı kitab** | **Ramsar** | **CİTES** | **Bern konvensi yası** | **Bonn konvensi yası** | **AEWA sazişi** |
| **1** | Podiceps ruficollis | - | + | - | + | + | + |
| **2** | P. cristatus | - | + | - | + | + | + |
| **3** | Phalacrocorax carbo | - | + | | + | - | - |
| **4** | Ardea purpurea | + | + | - | + | + | + |
| **5** | Himantopus himantopus | - | + | - | + | + | + |
| **6** | Recurvirostra avosetta | + | + | - | + | + | + |
| **7** | Larus cachinnans | - | + | - | + | + | + |
| **8** | Chlidonias hubrida | - | + | - | + | + | + |
| **9** | Ch. leucoptera | - | + | - | + | + | + |
| **10** | Sterna hirundo | - | + | - | + | + | + |
| **11** | Sterna albifrons | - | + | - | + | + | + |
| **12** | Sterna sandivicensiz | - | + | - | + | + | + |

Cədvəl 4 – dən görünür ki, Abşeron arxipelaqı adalarında yuvalayan quşlardan 2 növ həm Azərbaycanın Qırmızı kitabına, həm də Beynəlxalq konvensiyalara daxil olduğu üçün xüsusi, 10 növ isə konvensiya və sazişlərə daxil olduğu üçün beynəlxalq miqyasda qorunur.

**Pirallahı adası.** Sahəsi 15 $km^2$ – dir. Burda böyük sayda əhali məskunlaşıb. Quru ərazisinin tam əksər hissəsi antropogen amillərin neqativ təsiri altındadır (12, 13). Şimal, Şimal – Şərq hissəsinə həmsərhəd Xəzərin sahil zolağında neftlə çirklənmiş sahələr, çoxlu sayda neft mədənləri, özüllər və s. tikinti obyektləri vardır. Neft daşıyan gəmilərin hərəkəti tez – tez müşahidə olunur. Adanın qərb hissəsinə həmsərhəd Şimali Abşeron körfəzinin sahil zolağında su və sahil quşlarının əsas yuvalama biotopları, açıq bataqlıqlar, adacıqlar yoxdur. Qeyd edilən səbəblərdən adanın şimal, şimal – şərq və qərb hissəsi su və sahil quşlarının yuvalaması üçün yararsızdır. Əsasən cənub - qərb hissəsinin qurtaracağında və ona həmsərhəd Xəzərin sahil sularında quşların təbii yuvalama biotopları: qamışlıqlar, açıq bataqlıqlar,

çoxsaylı adacıqlar və süni yuvalama yerləri olan istifadəsiz neft özülləri vardır. Qeyd edilən biotoplarda 7 növ quş yuvalayır. Onlardan 3 növ (Ardea purpurea, Podiceps ruficollis, P. cristatus), 6 növ (Sterna sandivicensiz, Chlidonias hubrida, Ch. leucoptera, Sterna hirundo, Recurvirostra avosetta, Himantopus himantopus), 2 növ özüllərdə (Phalacrocorax carbo, Larus cachinnans) yuvalayır. Onlardan Phalacrocorax carbo – nun əsas həssaslıq dövrü aprel – iyun ayları, Larus cachinnans – ın may – iyulun birinci yarısı, Sterna sandivicensiz, Chlidonias hubrida, Ch. leucoptera, Sterna hirundo, Recurvirostra avosetta və Himantopus himantopus – un may – iyun ayları, Podiceps ruficollis və P. Cristatus - un aprelin ikinci yarısı və may – iyun aylarıdır.

**Çilov – ördək adası.** Sahəsi 13 km$^2$ – dir (12, 13). Adada böyük sayda əhali məskunlaşıb. Bəzi yerləri neftlə çirklənmişdir. Su nəqliyyat vasitələrinin hərəkəti intensivdir. Qeyd edilən və digər səbəblərdən adada su və sahil quşları yuvalamır. Quşlardan 4 növ (Phalacrocorax carbo, Larus cachinnans, Sterna hirundo, Sterna albifrons) adaya yaxın Yal adalarında və onlara həmsərhəd Xəzərin sahil sularındakı çoxsaylı istifadəsiz özüllərdə yuvalayırlar. Qeyd edilən birinci üç növün əsas həssaslıq dövrü Pirallahı adasındakı həssaslıq dövrü ilə eyni vaxtda olur. Sterna albifrons – un isə həssaslıq dövrü may – iyun aylarıdır.

**Tava (Böyük, Kiçik) və Koltiş adaları.** Adaların ərazisi qayalıqlardan və qumsallıqlardan ibarətdir. Adalarda 2 növ özüllərdə (Larus cachinnans, Sterna hirundo) yuvalayır. Hər iki növün əsas həssaslıq dövrü Pirallahı və Çilov adalarında olduğu kimidir.

**Qarabatdaq adası.** Quşların təbii yuva biotopları qumsallıqlardan, süni yuva biotopları isə ada ətrafı Xəzərin sahil sularındakı istifadəsiz özüllərdən ibarətdir. Qumsallıqlarda Sterna hirundo, özüllərdə isə Phalacrocorax carbo və Larus cachinnans yuvalamışdı. Hər üç növün həssaslıq dövrü o biri adalarda olduğu kimidir.

**Qu adası.** Çılpaq qayalardan və daşlardan ibarətdir. Adada quşların yuvalaması müşahidə edilməmişdir. Qeyd edilənlərdən aydın görünür ki, Abşeron arxipelaqı adalarında ona həmsərhəd Xəzərin sahil sularında yuvalayan su və sahil quşlarının əsas həssas yerləri Pirallahı adasının cənub – şərq qurtaracağı, Tava (Böyük, Kiçik), Koltiş, Yal, Qarabatdaq adaları və bu adalara, həmçinin Qu və Çilov – ördək adalarına həmsərhəd çoxsaylı istifadəsiz özüllər olan Xəzərin sahil sularıdır (Şəkil 4).




Şəkil 4. Abşeron arxipelaqı adaları rayonunda yuvalayan su və sahil quşlarının əsas həssas yerləri (- - - - - ).

**Məlumatın təhlilindən aşağıdakı nəticələr alınır:**

1. Cənub – Qərbi Abşeron müqavilə sahəsinin yerləşdiyi Xəzərin Abşeron - Qobustan sahil zolağı zəngin biomüxtəlifliyə malikdir. Burda 128 növ sudaüzən və sahil quşu məskunlaşır. Onlardan 21 - i Azərbaycanın və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının Qırmızı Siyahısındadır.
2. Cənub – Qərbi Abşeron müqavilə sahəsində sudaüzən və sahil quşlarının növ tərkibi və sayı miqrasiya vaxtı sutka və aylar üzrə kəskin dəyişir. Miqrasiyanın ən aktiv vaxtı payızda noyabr və dekabrın 1-ci yarısı, yazda isə mart ayıdır. Miqrasiya vaxtı quşlara dənizin bütün sahil zolağında və dərin sahələrində rast gəlmək olur.
3. Qışda quşların həssas beynəlxalq toplantı yerləri Xəzərin Pirallahı, Şahdili, Türkan, Zığ, Puta (Dərin Özüllər zavoduna yaxın laqunlar da daxil olmaqla) və Səngəçal sahil suları və Qırmızı göldür.
4. Yuvalama dövründə sahil ekoloji qrupuna mənsub quşların əsas və həssas toplantı yerləri Şahdili burnu, Pirallahı, Tava (Böyük, Kiçik), Koltiş, Yal, Çilov – ördək,

Qarabatdaq adaları, Puta buxtasına yaxın xırda adalar, Qum Zirə, Daş Zirə, Tava, Xanlar adasıdır. Yuvalayan quşların əsas həssaslıq dövrü aprelin ikinci yarısından iyul ayının ikinci yarısına kimidir.

5. Son 10 ildə Cənub – Qərbi Abşeron müqavilə sahəsinin yerləşdiyi ərazilərdə (quşların yaşayış yerlərində) intensiv neftçıxarma, neftin nəql edilməsi, fiziki şəxslər və özəl şirkətlər tərəfindən intensiv tikinti işləri aparılır. Cənub – Qərbi Abşeron müqavilə sahəsində görülmüş və görüləcək seysmokəşfiyyat işlərinin quşlara təsirini obyektiv qiymətləndirmək üçün, quşların növ tərkibinin, yaşayış yerlərinin müasir vəziyyətinin, biotoplar üzrə yayılmasının və sayının öyrənilməsi vacibdir.
6. Quşların nəsilvermə vaxtı tələf olmasının qarşısını almaq məqsədilə adalarda və onlara yaxın Xəzərin akvatoriyasında aprel ayının ikinci yarısından iyul ayının ikinci yarısınadək seysmokəşfiyyat işlərinin aparılması məqsədəuyğun deyildir.
7. Qış mövsümündə quşlara və əsas yaşayış yerlərinə təsirini minimuma endirmək məqsədilə seysmokəşfiyyat işlərinin mərhələlərlə aparılması vacibdir.

Onu da qeyd edirik ki, ELF Petrolium şirkəti tərəfindən Kürdili adası və ətrafındakı sahil sularda seysmokəşfiyyat işləri mərhələlərlə aparılmış və bu öz müsbət nəticəsini vermişdir.

## Terminlərin izahlı lüğəti

Region – "Sudaüzən quşların populyasiyasının qiymətləndirilməsi" soraq kitabının üçüncü nəşrindəki (15) təyinə əsasən Xəzərin sahili boyu aparılan tədqiqat sahələri Qərbi Asiya və Xəzər regionuna daxildir.

1% - li hədd – Ramsar konvensiyasında su - bataqlıq biotoplarının beynəlxalq əhəmiyyətə malik olduğunu göstərmək üçün müəyyən edilmiş və geniş istifadə olunan kriteriyadır. Ramsar konvensiyasına görə 1% və ya daha çox sayda hər hansı növ su quşu yaşayan su - bataqlıq sahəsi beynəlxalq əhəmiyyətə malikdir.

Ramsar sahəsi – Ramsar İran şəhəridir. 1971 - ci ildə bu şəhərdə su - bataqlıq biotopları haqqında Beynəlxalq konvensiya imzalanmışdır. Azərbaycan Ramsar konvensiyasını 18 iyul 2001 - ci ildə imzalanmışdır. Beynəlxalq əhəmiyyətə malik su - bataqlıq sahələri siyahısına daxil edilmiş sahələr "Ramsar sahəsi" adlanır.

Hər hansı bir su - bataqlıq sahəsinə Ramsar statusunun verilməsi üçün həmin sahə aşağıda göstərilən tələblərə cavab verməlidir.

a) Sahədə 20000 və ya daha çox sudaüzən quş mövcud olmalı; yaxud
b) Bu su - bataqlıq biotopunda əhəiyyətini, məhsuldarlığını, müxtəlifliyini göstərən xeyli sayda müəyyən qrup sudaüzən quş mövcud olmalı; yaxud
c) Sudaüzən quşların bir növünün (yarımnövünün) bir populyasiyasının regiondakı sayının 1% - li, yaxud daha çox mövcud olmalı (15,16).

## *ƏDƏBİYYAT SİYAHISI*

1. Azərbaycanın Qırmızı kitabı. Bakı, “İşıq” nəşriyyatı, 2013.
2. Babayev İ.R., Səlifova Ş.H. Xəzər dənizinin Açşeron - Qobustan sahil sularında su - bataqlıq quşlarının böyük toplantı yerləri və bu yerlərin neft axınlarına qarşı həsaslığı. Azərbaycan Zooloqlar Cəmiyyətinin I qurultayının materialları. Bakı, “Elm”, 2003.
3. Babayev İ.R., Qəndilov N.O. Abşeron - Qobustan, Cənub - Şərqi Şirvan və onlara həmsərhəd Xəzərin sahil sularında nadir, nəsli kəsilməkdə olan quşların ekoloji xüsusiyyətləri və qorunması (yekun hesabatı). AMEA Zoologiya İnstitutu. Bakı, 2003.
4. Babayev İ.R., Əskərov F., Əhmədov F.T. Biomüxtəliflik: Xəzərin Azərbaycan hissəsinin sudaüzən quşları. “Nurlar” nəşriyyat poliqrafiya mərkəzi. Bakı. 2006.
5. Babayev İ.R. Xəzər dənizinin Azərbaycan sahillərində su və sahil quşlarının reproduksiya dövründə yayılması və kəmiyyət göstəriciləri // Görkəmli alim və ictimai xadim, akademik Həsən Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “Akademik Həsən Əliyev və Azərbaycanda” elmi - praktiki konfransın tezisləri. Bakı, “Çaşoğlu” nəşriyyatı, 2007.
6. Babayev İ.R. Xəzər dənizinin Azərbaycan sahillərində qışlayan quşların yayılması və kəmiyyət göstəriciləri // “Akademik Həsən Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş Ekologiya: Təbiət və Cəmiyyət problemləri”. Beynəlxalq elmi konfrans. Bakı, 2007.
7. Карабанова Н.И. Миграции птиц северо - восточной части Азербайджана. Автореферат диссертации на соискание ученой степени кандидата биологических наук. Кишинев, 1991.
8. Касымов А.Г. Экология Каспийского озера. Изд. «Азербайджан». Бакы, 1994.
9. Гамбаров К.М. и др. Материалы по птицам Апшеронского полуострова. «Уч.зап.АГУ им С.М.Кирова,с ерия биолог.» № 1.1958.

10. Mustafayev Q.T., Sadıqova N.A. Azərbaycanın quşları (təyinedici monoqrafiya). Bakı, “Çaşıoğlu” nəşriyyatı, 2005.
11. Tuayev D.Q. Azərbaycan quşlarının kataloqu. “İşıq” nəşriyyatı, 2009.
12. Azərbaycan Respublikasının Ümumcoğrafi Məlumat Xəritəsi. Bakı, Kartoqrafiya fabriki, 1992.
13. Azərbaycan SSR – nin Fiziki coğrafiyası. AU nəşriyyatı, 1959.
14. Аспинал С., Бабаев И.Р. и др. Мониторинговые исследования водоплавающих птиц зимой о Апшеронского полуострова до дельты р. Кура (окончательный отчет. 2002-2006гг). URS, BP, Баку, 2006
15. Scott, D.A. & Rose, P.M. 1996. Atlas of Anatidae populations in Africa and Western Eurasia/ Wetlands International, Wageningen, The Netherlands
16. Delany,S &Scott,D.A. 2002. Waterfoul Population Esrtimates. Third edition Wetlands International Global Series. N12, Wageningen. The Netherlands.
17. The IUCN Red List of Threatened species. Version 2015 – 3. www.iucnredlist.org. Downloaded on 16 October 2015.
18. Birds in Europe. Birdlife Conservation series N 12. Birdlife international. 2004.
19. Checklist of SITES species, 2005, Geneve.
20. Threatened birds of the world (Official IUCN Red List), Birdlife International, UK, 2008

**Azərbaycan MEA Zoologiya İnstitutu**

**Zooloji muzeyin direktoru, b.ü.f.d. namizədi İ.R.Babayev**